No: 03 2025
https://doi.org/10.64400/ea25-3-11
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ QAÇQINLIQ PROBLEMİ: ŞƏRİF AĞAYAR NÜMUNƏSİNDƏ

**Günay YEDİYARLI**

Xəzər universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* *gunay.yediyarli.92@mail.ru*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* *20.08.2025*
*Nəşr edilmə tarixi:* *28.10.2025*

**AÇAR SÖZLƏR:**
Şərif Ağayar,
Arzulardan sonrakı şəhər,
məcburi köç,
qaçqınlıq,
yurd həsrəti

**XÜLASƏ**

Məqalədə müasir Azərbaycan nəsrində qaçqınlıq probleminin bədii və sosial-psixoloji aspektləri Şərif Ağayarın “Arzulardan sonrakı şəhər” romanı əsasında təhlil edilir. Tədqiqatın məqsədi əsərdə məcburi köç və yurd həsrəti kimi anlayışların necə poetik şəkildə təqdim olunduğunu, həmçinin bu təcrübənin fərdin psixologiyasına və kimlik axtarışına necə təsir etdiyini araşdırmaqdır. Metod olaraq əsərin mətni üzərində ədəbi-psixoloji və kontekstual təhlil aparılmış, həm bədii ifadə vasitələri, həm də obrazlar sistemi araşdırılmışdır. Eyni zamanda əsər Azərbaycanın ictimai-tarixi reallıqları fonunda nəzərdən keçirilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, roman yalnız qaçqınlığın fiziki reallığını deyil, həm də insanın daxili aləmində baş verən sarsıntı və dəyişiklikləri əks etdirir. Əsərdə yurd itkisi, ailə dağınıqlığı və mənəvi boşluq kimi motivlər ön plana çəkilir və müharibə sonrası travmalar fərdi talelər üzərindən təsvir olunur. Nəticə olaraq qeyd etmək olar ki, “Arzulardan sonrakı şəhər” romanı təkcə bir fərdin yox, bütöv bir nəslin və toplumun köç və itki təcrübəsini ədəbi dildə ifadə edən nümunəvi əsərdir. Bu baxımdan roman çağdaş qaçqınlıq ədəbiyyatında mühüm yer tutur.

## GİRİŞ

Azərbaycan nəsrində qaçqınlıq və köçkünlük mövzusu xüsusilə son onilliklərdə daha çox aktual bədii problem kimi diqqət çəkir. Müharibə, torpaq itkisi, doğma yurd yerlərinin viran qalması təkcə sosial-məişət çətinliyi ilə deyil, həm də dərin psixoloji və mənəvi iztirablarla müşayiət olunur. Müasir yazıçılar bu problemi təkcə hadisə və faktlar səviyyəsində deyil, insanın daxili dünyasında yaratdığı pozuntular, yadlaşma, kimlik itkisi və zamanla dəyişən münasibətlər kontekstində təqdim etməyə çalışırlar. Bu baxımdan Şərif Ağayarın “Arzulardan sonrakı şəhər” romanı xüsusilə fərqlənir. Romanda qaçqınlıq təkcə məkan deyil, həm də yaddaş, mənəviyyat və şəxsiyyət itkisi kimi işlənmişdir. Tədqiqatda əsərin bu aspektlərdə təhlili aparılacaq, müəllifin bədii təqdimat vasitələri və psixoloji dərinlik yaratmaq üsulları nəzərdən keçiriləcəkdir.

## MATERİAL VƏ METODLAR.

Tədqiqat materialı kimi Şərif Ağayarın “Arzulardan sonrakı şəhər” romanı seçilmişdir. Əsər üzərində ədəbi və psixoloji təhlil aparılmış, qəhrəmanların yaşantıları, yurd həsrəti və qaçqınlıq təcrübəsi araşdırılmışdır. Roman həm bədii ifadə vasitələri, həm də Azərbaycan cəmiyyətinin müharibə və köç reallıqları fonunda dəyərləndirilmişdir.

## ƏSAS HİSSƏ.

Müasir Azərbaycan nəsrində müharibə və qaçqınlıq mövzusu çox zaman fərdin yaddaşında və cəmiyyətin şüuraltında baş verən sarsıntılar fonunda bədii şəkildə təqdim olunur. Bu mənada

Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanı məhz bu psixoloji və sosial-mədəni dağılma proseslərinin dərin bədii ifadəsidir.

Şərif Ağayarın əsərlərinin böyük əksəriyyətində Qarabağ hadisələri, müharibənin doğurduğu faciələr, qaçqın və köçkünlərin ağır həyat şəraiti, eləcə də yurd həsrəti, doğma torpaqlara qayıdış ümidi əsas mövzu kimi önə çıxır. Yazıçının müharibə mövzusuna xüsusi həssaslıqla yanaşmasının səbəblərindən biri də onun doğulub boya-başa çatdığı Laçın rayonunun uzun illər işğal altında qalması ilə bağlıdır. Məhz bu cür mövzuların dərindən işlənməsi Şərif Ağayarın yaradıcılığını fərqləndirir və onun əsərlərinə xüsusi maraq qazandırır.

Müasir Azərbaycan nəsrində qaçqınlıq təkcə sosial-məişət hadisəsi kimi deyil, həm də dərin psixoloji və fəlsəfi qatlarda işlənən ədəbi mövzuya çevrilmişdir. Bu baxımdan Şərif Ağayarın üçüncü romanı olan "Arzulardan sonrakı şəhər" romanı istisna edilə bilməz. Müəllif burada qaçqınlığın sadəcə məkan itkisi deyil, eyni zamanda insan kimliyinin dağılması, mənəvi dağınıqlıq və zamanla psixoloji yadlaşma prosesi kimi təzahür etdiyini nümayiş etdirir.

"Arzulardan sonrakı şəhər" qeyri-adi bir yuxu təsviri ilə başlayır. Əsərin qəhrəmanı – uşaqlıqla yeniyetməlik arasında qalan Həsən – tez-tez çəhrayı atların yer aldığı yuxular görür. Bu yuxular o qədər təkrarlanır ki, Həsən bir nöqtədən sonra artıq onların gerçək olubolmadığını ayırd edə bilmir. Ancaq bu atlar adi atlar deyil – ağızlarına sarınmış dəmir məftillər onlara nə ot yeməyə, nə su içməyə imkan verir. Susuzluq və aclıqdan əzab çəkən bu heyvanların halı Həsənin içində dərin izlər buraxır. Xüsusilə də, məftillərin açdığı yaralardan süzülən qan uşağın yaddaşında insan qəddarlığının simvoluna çevrilir.

Həm doğma torpağın, həm də valideynlərin yoxluğu Həsənin yuxularına çəhrayı atlar kimi sirayət edir. Bu obrazlar onun daxili dünyasında təlatüm yaradır. Həsən bu qədər boşluğa, bu qədər itkini qəbul etməyə çalışsa da, içindəki boşluq dolmur. Harada ki həsrət, ayrılıq var, orada yuxular da rahat olmur.

Müəllifin qəhrəmanı ailə bağlarının zəifliyi və uşaqlıqda yaşadığı itkilərlə formalaşan təkliyini ifadə edir. O, valideynlərinin aqibətindən bəhs edərək deyir: "Məni nənəm böyüdüb, anamı uşaqlıqdan itirmişəm, atamın üzünü görməmişəm. Atam da rəhmətə gedib. Avtomobil qəzasında..." (Ağayar, 2017, s. 25). Bu cümlələrdən qəhrəmanın təkcə bioloji yox, həm də emosional baxımdan yaxınlarından uzaq düşdüyü aydın olur. Atasının itkisi və ailə strukturunun dağılması qəhrəmanın psixoloji vəziyyətinə dərin təsir göstərmişdir.

Əsərdə bu psixoloji boşluq yuxularla dolur. Müəllif qeyd edir ki, Həsən çəhrayı atları anasının ölümündən sonra yuxularında görməyə başlayır. Bu yuxular simvolik xarakter daşıyır və qəhrəmanın emosional dünyasında travmanın, qorxunun və eyni zamanda itirilmiş uşaqlığın əks-sədası kimi təqdim olunur. Həsən deyir: "Deyəsən anam müharibə başlamazdan bir az əvvəl öldü. Çəhrayı atlar o öləndən sonra yuxuma gəlməyə başladı. Mən yuxuda çəhrayı atların qoxusunu da hiss edirdim. Məncə, bu, anamın yaddaşımın hansısa küncündə ilişib qalan qoxusuydu. Düzdür, o qoxunu sözlərlə ifadə edə bilmərəm, lakin harda qarşıma çıxsa, tanıyaram" (Ağayar, 2017, s. 25). Bu hissədə qoxu duyğusu vasitəsilə yaddaşın və emosional bağların necə yenidən canlandığı göstərilir. Qəhrəman üçün qoxu, konkret bir hadisəni deyil, ana obrazını və onunla bağlı silinmiş yaddaş fraqmentlərini çağırış etdirir. Bu isə travmanın bədii təqdimində duyğu, yaddaş və xəyalın necə iç-içə keçdiyini göstərən mühüm nümunədir.

Bu yuxuların yaratdığı psixoloji gərginlik Həsəni öz daxilində fərqli bir aləm qurmağa vadar edir. O, beynində heç bir zorakılığın, ölümün, qəddarlığın, xəstəliyin olmadığı, hər kəsin mehriban və xeyirxah olduğu bir şəhər təsəvvür edir. Bu şəhərdə hətta ağaclar da payızda yarpaqlarını tökmür – hər şey əmin-amanlıq içindədir. "Məncə, arzulardan sonrakı şəhərin adını tapsam, yerini də taparam və ora asanlıqla gedə bilərəm. Ona görə, həmişə axtarıram. Günlərin bir günü mütləq tapacağam". (Ağayar, 2017, s. 9) Orada yaşamaq üçün yalnız bir şərt var: xeyirxah olmaq.

Məcburi köçkünlük şəraitində böyüyən uşaqların dünyagörüşündə müharibə və köç həyat tərzi kimi qavranılır. Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanında baş qəhrəman Həsən yaşadığı bu reallığı belə ifadə edir: "Biz üç il əvvəl şəhərin təxminən 10–15 kilometr qərbində yerləşən yaşıl təpələrin arasındakı kənddən köçüb gəlmişik. Gözümüzü açandan bizim yerlərdə

müharibə gedir.”( Ağayar, 2017, s. 8) Bu cümlə sadəcə bir köç tarixçəsini deyil, həm də bir nəslin yaddaşına hopmuş itki və zorakılıq təcrübəsini özündə əks etdirir. Müharibə burada fon deyil, qəhrəmanın varoluşunun ayrılmaz hissəsidir.

Şərif Ağayarın yaradıcılığında dil və üslub amili xüsusi əhəmiyyət daşıyır. Onun əsərlərində xalq danışıq dili ilə bədii təhkiyə dili vəhdət təşkil edir. Müəllifin üslubu sadə, anlaşıqlı, lakin eyni zamanda bədii dəyər baxımından zəngindir. O, yazılarında Azərbaycan dilinin incəliklərindən, frazeoloji vahidlərdən, lətifələrdən, xalq deyimlərindən və məhəlli ifadələrdən bacarıqla istifadə edir. Bu xüsusiyyətlər həm müəllifin ədəbi dilə olan məsuliyyətli münasibətini, həm də realizmə əsaslanan bədii təqdimat üslubunu ortaya qoyur.

Şərif Ağayar obrazların dilini onların sosial statusuna, yaşına, təcrübəsinə və psixoloji durumuna uyğun şəkildə fərdiləşdirir. Hər bir qəhrəman onun özünəməxsus danışıq tərzində təqdim olunur ki, bu da personajların daha canlı və inandırıcı alınmasına xidmət edir. Dilin bu cür funksional işlədilməsi yazıçının bədii dünyagörüşünü və realizm estetikasına bağlılığını təsdiqləyir.

Şərif Ağayarın dilə və üsluba verdiyi önəm bir çox ədəbi tənqidçilərin də diqqətini çəkmişdir. Yazıçı Elçin Hüseynbəyli onun təhkiyə ustalığını və xalq dilindən məharətlə istifadəsini xüsusi vurğulayaraq qeyd edir ki, “indiyə qədər bu qədər axıcı təhkiyəyə və dil zənginliyinə az əsərdə rast gəlmişəm və mənə elə gəlir ki, bu müstəvidə Şərif çoxlarını qabaqlayır”. Müəllifin fikrincə, obrazlar da canlı və inandırıcıdır, çünki “hərə öz düşüncəsinə uyğun, öz dünyagörüşünə adekvat dillə danışırdı” (Hüseynbəyli, 2017, s.9).

“Arzulardan sonrakı şəhər” romanında müəllif müharibəni bəzəkli və ideallaşdırılmış şəkildə yox, reallığa yaxın və soyuq rənglərlə təsvir edir. Yazıçı baş verənləri romantikləşdirmədən, necə varsa, elə də göstərməyə çalışır. Bu da əsərə daha inandırıcı və təbii bir hava verir. Müəllif göstərir ki, müharibədə təkcə qəhrəmanlıq deyil, qorxu və çaşqınlıq da var və bu hisslər heç də zəiflik deyil. Elə buna görə də, nəvəsi müharibəyə getməsin deyə əfqanlardan ümid gözləyən nənənin hisslərini anlamaq çətin deyil – bu, dövrün yaratdığı ziddiyyətli durumun nəticəsidir.

Romanda müharibə ənənəvi şəkildə – yaxşı və pis obrazların qarşıdurması kimi təqdim olunmur. Əksinə, hadisələr daha dərin, insanın daxilində baş verən qarışıqlıqlar prizmasından göstərilir. Həsənin içində yaşadığı boşluq və təkliyi təkcə müharibə doğurmur. Bu vəziyyət hələ müharibədən əvvəl – ailəsində yaranan problemlərlə başlayır. Nənə və babası, anası və atası arasında yaranan gərginlik, münasibətlərin pozulması Həsənin həyatında böyük boşluq buraxır. Müharibə isə bu sarsıntını daha da artırır – onu həm yurdundan, həm də uşaqlığından uzaq salır. Ailənin birliyi pozulur, yaxınlarının çoxu dünyasını dəyişir, amma onların arasındakı inciklik, acı xatirələr silinmir.

Köçkünlük bu ailədaxili faciəni daha da dərinləşdirir, nənə və nəvənin taleyinə əlavə yük kimi çökmüş mənəvi boşluq yaradır. Qürbətdə qalan qəbirlər isə köçün yaratdığı itki hissini, kənddən şəhərə, yaşıl və doğma torpaqlardan yad və soyuq məkanlara sürüklənməyin ağrısını simvolizə edir. Onlar bağ-bağatdan səhraya köçün poetik, lakin sarsıdıcı xatirəsinə çevrilir.

Ümumilikdə, “Arzulardan sonrakı şəhər” əsəri müasir dövrdə məcburi köçkünlük probleminin fərdi psixologiyaya, kimlik anlayışına və insani münasibətlərə təsirini dərindən əks etdirən nümunəvi ədəbi mətnlərdəndir. Şərif Ağayar burada qaçqın insanın mənəvi iztirablarını yalnız hadisə süjetində deyil, həm də daxili monoloq, yaddaş fraqmentləri və simvolik məkanlar vasitəsilə təqdim edir.

“Arzulardan sonrakı şəhər” romanı Şərif Ağayarın yalnız bədii təxəyyülünün məhsulu deyil, həm də bir xalqın yaddaş yükünü daşıyan, onun travmalarını, həsrətlərini və psixoloji vəziyyətini dərinliklə əks etdirən ədəbiyyat nümunəsidir. Müəllif bu əsərdə müharibə, qaçqınlıq və itkilər fonunda formalaşan fərdi taleləri çoxqatlı psixoloji və simvolik çalarlarla təqdim edir. Qəhrəmanın yaşadığı mənəvi parçalanma, yaddaşında daşıdığı ağrılı xatirələr, itirilmiş bağlar və yuxularla canlanan travmatik təcrübələr oxucunu təkcə bir fərdin deyil, bütöv bir toplumun yaşantılarına şahid edir.

Əsərdəki dil, emosional yüklü təsvirlər və simvolik elementlər – xüsusilə də çəhrayı atlar obrazı – müharibə və köçün insan ruhunda açdığı izləri bədii söz vasitəsilə anlamağa imkan verir.

Ənənəvi qəhrəman zərif, kövrək və daima xatirələr arasında qalan bir qəhrəman tipi təqdim olunur. Bu da romanı fərqli və yaddaqalan edən əsas məqamlardandır.

Nəticə etibarilə, "Arzulardan sonrakı şəhər" romanı müasir Azərbaycan nəsrində qaçqınlıq və yurd həsrəti mövzusunun bədii təqdimi baxımından mühüm ədəbi hadisə kimi qiymətləndirilə bilər. Əsər, həm fərdi faciənin, həm də kollektiv yaddaşın təcəssümü kimi, ədəbiyyatın ictimai və psixoloji funksiyalarını da uğurla daşıyır.

"Arzulardan sonrakı şəhər"də isə şəhər özü bir simvoldur – arzuların gerçəkləşmədiyi, insanın içində sıxıldığı süni bir məkan. Burada simvolika daha çox metaforik və fəlsəfi xarakter daşıyır.

Ümumən Şərif Ağayarın əsərlərində yurd həsrəti, el-oba sevgisi və doğma torpaqlara qayıdış arzusu ön plandadır. Bu arzu təkcə nostalji duyğularla yox, həm də dərin simvolik və metaforik anlamlarla təqdim olunur. Müəllifin yaratdığı obrazlar və situasiyalar vasitəsilə oxucuya aydın olur ki, əgər gələcək nəsil öz tarixini, xalqının keçdiyi çətin yolları tanımadan böyüyərsə, onun sağlam milli kimlik və vətənpərvərlik duyğularıyla yetişməsi çətin olar. Bu mənada Şərif Ağayarın əsərləri təkcə ədəbi dəyər daşımır, həm də gənc nəslin vətənə bağlı ruhda formalaşmasında mühüm tərbiyəvi rol oynayır.

**NƏTİCƏ.**

Araşdırma zamanı müəyyən edilmişdir ki, Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanı müasir Azərbaycan nəsrində qaçqınlıq və köçkünlük problemini fəlsəfi-psixoloji dərinliklə təqdim edən sanballı ədəbi nümunələrdən biridir. Əsərdə qaçqınlıq yalnız fiziki məkan itkisi deyil, həm də mənəvi boşluq, fərdi yadlaşma, zamanla kimlikdən uzaq düşmə kimi təzahür edir. Romandakı qəhrəmanın yaddaşla təmas halında yaşadığı daxili təlatümlər, itirilmiş yurd hissinin insan taleyinə necə sirayət etdiyi bədii və simvolik çalarlarla təqdim olunmuşdur.

Əsərin dili və təhkiyəsi də müəllifin bu mövzuya fərdi yanaşmasını nümayiş etdirir. Xalq danışıq dilinə yaxın ifadə tərzi, dialoqlarda olan səmimiyyət və obrazların daxili düşüncə axınının verilməsi oxucuda hadisələrin birbaşa şahidi olmaq təəssüratı yaradır. Eyni zamanda əsərdə təbiət təsvirləri, yaddaşda iz buraxan uşaqlıq detallarının köməyi ilə məkan və zaman arasında qurulan paralellər qaçqınlıq təcrübəsinin emosional yükünü artırır.

Tədqiqat nəticəsində aydın olur ki, Şərif Ağayarın bu romanı təkcə bir fərdin yox, bütöv bir toplumun yaddaşında yaşayan travmaların, yurd həsrətinin və itirilmiş mənəvi dəyərlərin bədii ifadəsinə çevrilmişdir. Əsər həm də gələcək nəsillər üçün tarixi-mədəni yaddaşın qorunmasında ədəbi vasitə rolunu oynayır və bu baxımdan yüksək estetik və tərbiyəvi əhəmiyyət daşıyır.

**MƏQALƏNİN ELMİ YENİLİYİ.**

Məqalədə müasir Azərbaycan nəsrində qaçqınlıq və müharibə mövzusunun psixoloji və simvolik qatlarda bədii təqdimatı araşdırılmışdır. Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanı əsasında fərdi yaddaş, travmatik təcrübə, simvolik obrazlar (çəhrayı atlar, "arzulardan sonrakı şəhər" məkanı) və dil-üslub xüsusiyyətləri yeni rakursdan təhlil edilmişdir. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, əsərdəki qaçqınlıq təcrübəsi yalnız sosial-məişət aspektində deyil, həm də insan kimliyi, yaddaş və emosional yadlaşma prosesləri fonunda araşdırılır.

**MƏQALƏNİN TƏTBİQİ ƏHƏMİYYƏTİ.**

Tədqiqat nəticələri Azərbaycan ədəbiyyatında qaçqınlıq və müharibə mövzusunun müasir bədii təqdimini öyrənən tədqiqatçılar üçün faydalı ola bilər. Məqalədəki qənaətlər ali məktəblərin filologiya fakültələrində dərs prosesində, "Müasir Azərbaycan ədəbiyyatı", "XX-XXI əsr Azərbaycan nəsri" fənlərində mühazirə və seminarların hazırlanmasında istifadə oluna bilər. Həmçinin, əsərdəki psixoloji və simvolik qatların təhlili ədəbiyyatşünaslıqda travma və yaddaş araşdırmaları üçün nəzəri material rolunu oynaya bilər.

## ƏDƏBİYYAT SİYAHISI


1. Ağayar, Ş. (2017). *Arzulardan sonrakı şəhər*. Bakı: Qanun nəşriyyatı.
2. Hüseynbəyli, E. (2017, December 30). Arzulardan əvvəlki və sonrakı Şərif. *Ədəbiyyat* qəzeti, s. 9.
3. Ağayar, Ş. (2011). *Haramı*. Bakı: Qanun nəşriyyatı.
4. Ağayar, Ş. (2015). *Gülüstan*. Bakı: Qanun nəşriyyatı.


## SUMMARY

## THE PROBLEM OF REFUGEES IN CONTEMPORARY AZERBAIJANI PROSE: THE CASE OF SHARIF AGAYAR


**Gunay Yediyarli**



This paper explores the literary and socio-psychological aspects of the refugee problem in contemporary Azerbaijani prose through an analysis of Sharif Agayar's novel The City After the Dreams. The main objective of the study is to examine how the notions of forced displacement and longing for homeland are poetically represented in the novel, and how such experiences affect individual psychology and identity formation. The research is based on literary-psychological and contextual analysis of the novel's content, focusing on narrative techniques, symbolic imagery, and character construction. The novel is also interpreted within the broader socio-historical context of post-Soviet Azerbaijan. Findings show that the novel reflects not only the physical reality of displacement, but also the inner fragmentation and emotional turmoil it causes. Themes such as the loss of homeland, family disintegration, and moral vacuum are central to the narrative, offering a deeply personal portrayal of post-war trauma. In conclusion, The City After the Dreams stands out as a significant literary example of collective and individual experience of forced migration, placing it among the notable works in contemporary Azerbaijani refugee literature.


**Keywords**: Sharif Agayar, The City After the Dreams, forced displacement, refugee literature, longing for homeland


## РЕЗЮМЕ

## ПРОБЛЕМА БЕЖЕНЦЕВ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ: НА ПРИМЕРЕ ТВОРЧЕСТВА ШАРИФА АГАЯРА


**Гюнай Едийарлы**



В данной статье рассматриваются литературные и социально-психологические аспекты проблемы беженцев в современной азербайджанской прозе на примере романа Шарифа Агаяра «Город после снов». Основная цель исследования – проанализировать, как в романе поэтически отражены понятия вынужденного переселения и тоски по родине, а также каким образом подобный опыт влияет на психологию личности и формирование идентичности. Исследование основано на литературно-психологическом и контекстуальном анализе содержания романа, с акцентом на повествовательные приёмы, символические образы и построение характеров. Роман также рассматривается в более широком социально-историческом контексте постсоветского Азербайджана. Результаты показывают, что произведение отражает не только физическую реальность переселения, но и внутреннюю фрагментацию и эмоциональное потрясение, которые оно вызывает. Темы утраты родины, распада семьи и морального вакуума занимают центральное место в повествовании, предлагая глубоко личное изображение послевоенной травмы. В заключение, «Город после снов» выделяется как значительный литературный пример коллективного и индивидуального опыта вынужденной миграции, занимая своё место среди заметных произведений современной азербайджанской литературы о беженцах.


**Ключевые слова:** Шариф Агаяр, Город после снов, вынужденное переселение, литература о беженцах, тоска по родине.